RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 161 (9616) 1 avqust 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İqtisadiyyatın daha da inkişafı üçün böyük potensial var

## Prezident İlham Əliyevin bu sahədəki islahatları öz bəhrəsini verir

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın aparıcı sahələrindən olan sənayedə müəssisələr və fərdi sahibkarlar tərəfindən 31,5 milyard manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib. Bunların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə artıb. Sənaye məhsulunun 65 faizi mədənçıxarma, 29,2 faizi emal sənayesinə aiddir. Qalan hissə isə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşüb. Sənayedə qeyri-dövlət sektorunun payı 81,6 faizdir. Ümumi istehsalın isə 89,7 faizi sənaye məhsullarının istehsalı, qalanı sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb. İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib.

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 20,5 milyard manat olmaqla keçən ilin birinci yarısına nisbətən 0,2 faiz artıb. Cari ilin ilk 6 ayında 14,4 milyon ton əmtəəlik xam neft və 19,1 milyard kubmetr əmtəəlik təbii qaz hasil olunub.

Emal sənayesində bu ilin yanvar-iyun aylarında 9 milyard 181,6 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tütün məmulatlarının istehsalında 18 faiz, içki istehsalında 14,9 faiz, qida məhsullarının istehsalında 4,6 faiz artım müşahidə edilib.

Toxuculuq sənayesi, geyim və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 207,5 milyon manat dəyərində məhsul buraxılıb. Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində hazırlanmış məhsul 1 milyard 22,6 milyon manat təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sahə üzrə bütün məhsul növlərinin istehsalı artıb.

Tikinti materiallarının istehsalında da artım olub. Belə ki, sözügedən dövrdə sementdən, betondan kərpiclər və oxşar məmulatların, asfaltın, betonun, tikinti gipsinin, betondan yığma tikinti konstruksiyalarının, sementin istehsalı çoxalıb. Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində də artım qeydə alınıb. Eyni sözlər kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrinə də aiddir.

Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində bu dövrdə 366,8 milyon manatlıq məhsul buraxılıb. Bu sahədə avtomobil, qoşqu və yarımqoşquların istehsalında 48 faiz artım olub. Keçən ilin eyni dövrü ilə müqayisədə 288 ədəd çox minik avtomobili istehsal edilib.

İqtisadiyyatın tikinti sektoruna gəldikdə isə, statistik məlumatlar göstərir ki, bu ilin birinci yarısında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyard 984,8 milyon manat, yaxud keçən ilin eyni vaxtına nisbətən 9,4 faiz çox investisiya yönəldilib. Daxili mənbələrdən yönəldilən investisiyanın dəyəri ümumi sərmayənin 80,8 faizini təşkil edib. Ümumi investisiyanın 42 faizi sənayenin, 25,8 faizi nəqliyyat və anbar təsərrüfatının, 21,8 faizi tikintinin payına düşüb.

Bu il istifadəyə verilən sosial-iqtisadi təyinatlı obyektlərin adlarını çəkmək də yerinə düşər. Bunlar Bakı şəhərində Dövlət Sərhəd Xidmətinin hərbi hospital kompleksi "Crescent Mall" ticarət mərkəzi, Gəncə şəhərində Gəncə İdman Sarayı, Abşeron rayonunda Palçıq Vulkanları Turizm Kompleksi, Lənkəran rayonunda regional "ASAN xidmət" mərkəzi, Qəbələ rayonunda Hacıalılı elektrik yarımstansiyası və digərləridir.

→ 11

# Qarabağ zəfərinin müəllifi Müzəffər Ali Baş Komandan və Azərbaycan Ordusudur



İki dövlətin münasibətlərinə kölgə düşməsin deyə, dəfələrlə gözardı etdiyimiz, görməzdən gəldiyimiz məqamlar olub. Amma bu məsələnin üstündən indi keçmək düzgün olmaz. "Türkiyə Azərbaycana Vətən müharibəsində nə kimi yardım edib?" sualına (əslində, bu ritorik sualdır!) bir daha cavab axtaraq.

Vətən müharibəsinin gedişində Türkiyənin Azərbaycana mühüm siyasi, mənəvi dəstəyi olub. Prezident İlham Əliyevin diplomatik fəaliyyəti sayəsində dostlarımızın sayı son onillikdə çox artıb və savaş müddətində Avropadan Asiyaya, ərəb ölkələrindən türk dövlətlərinədək genişmiqyaslı dəstəkçi, dost ölkələr haqq mücadiləmizi dəstəkləyib. Bu dövlətlərin ön sırasında isə Türkiyə ilə Pakistan dayanıb.

Xalqımız bu dövlətlərin bayrağını və liderlərinin şəkillərini həmin günlərdə və sonra da ən hündür yerlərdə asdılar. Bu gün də şəhidlərimizin məzarı üstündə Türkiyə bayrağı dalğalanır. Hətta inzibati və rəsmi normalara uyğun olmasa da, dövlət və qeyri-hökumət binalarının önündə, kabinetlərdə də Türkiyə bayrağına mütəmadi rast gəlinir.

İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başlayan gündən, daha dəqiq desək, dəqiqədən etibarən Xankəndidə keçirəcəyi hərbi parada gedilən yolun təməlini qoydu. Və nəticədə yalnız Azərbaycanın deyil, Türk, İslam dünyasının son əsrdə ən böyük hərbi zəfərini qazandı.

Ancaq təvazökarlığından öz Müzəffər Komandanlığını ötən 4 il ərzində bir dəfə də xatırlatmadı. Görüşlərdə bu barədə vətəndaşlar danışanda nəzakətlə sözlərini kəsdi, qələbənin müəllifinin yalnız ordumuz və xalqımız olduğunu dönə-dönə dedi.

Qələbənin sahibi çox olar, məğlubiyyət isə yetim qalar - bu deyim Azərbaycanın Vətən savaşındakı qələbəsinə də təəssüf ki, şamil oluna bilər.

Xalqımızın, ordumuzun, Komandanımızın halal qələbəsinə sahiblənmək, onu öz adına çıxarmaq cəhdlərini bütün Azərbaycan görür və məyusluqla, dərin təəssüflə izləyir.

Erməninin rəzil yalanını qardaşlarımızdan da eşitdikdə qəlbimiz sınır, inciyirik, gözləmədiyimiz yerdən duyduğumuz bu sözləri ağır mənəvi zərbə kimi qarşılayırıq.

Azərbaycanın zəfərinin nəticələri, məhz nəticələri bütün türk dünyasına məxsusdur, amma müəllifi onlar, o cümlədən Türkiyə deyil axı...

Qardaş Türkiyədə verilən məlum bəyanatlar, açıqlamalar 44 günlük müharibənin gerçəkliklərini açıq şəkildə təhrif edir. Ən əsası isə, erməni dəyirmanına su tökür!

Türkiyənin və ya hər hansı başqa ölkənin Azərbaycan torpaqlarının işğaldan azad olunmasında iştirakını, siyasi və mənəvi dəstəkdən başqa digər yardımlar, xüsusilə hərb meydanında köməklik göstərdiyini iddia etmək kökündən yanlışdır. Bilərəkdən, yaxud bilməyərəkdən ortaq düşmənimiz olan dünya erməniliyinə dil verməkdir!

Yeri gəlmişkən, "hərbi arsenala yardım" kimi sırınan informasya da yanlışdır. Onların hamısı hərbi əməkdaşlığın ticarət bölümünə aid məsələlərdir.

Yəni aldığımız hər güllənin, sursatın, texnikanın dəyərini son qəpiyinədək ödəmişik, cənablar!..

→ 3

# "Sülh sazişinin mətninə baxdıqda deyə bilərik ki, onun yekunlaşmasına çox yaxınıq"

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vurğulayıb ki, sülh sazişini yekunlaşdırmaq üçün yeganə maneəni aradan qaldırmaq daha çox Ermənistanın bacarıq və istəyindən asılıdır. Bu maneə Ermənistanda konstitusion şəkildə təsbit edilmiş Azərbaycana qarşı ərazi iddialarıdır. Sülh sazişinin mətninə baxdıqda öhdəsindən gəlinməyəcək başqa çətinlik görünmür.

"Bu yaxınlarda da qeyd edildiyi kimi, sülh sazişinin mətninin əksər hissəsi artıq razılaşdırılıb və geri qalan hissələri də həll oluna biləndir. Lakin biz münaqişənin mövcud olan ən böyük səbəbinə göz yumaraq irəli gedə və sülh sazişini imzalaya bilmərik. Bu səbəb isə odur ki, Ermənistanın bizə qarşı ərazi iddiaları var idi və bu iddialar konstitusiya hüququna əsasən hələ də aktualdır. Bu məsələ nə qədər tez həll olunsa, biz sonuncu mərhələyə o qədər tez yaxınlaşacağıq",- deyə Elçin Əmirbəyov qeyd edib.

O bildirib ki, ABŞ hər zaman geniş mənada Xəzər regionunda, o cümlədən Cənubi Qafqazda sabitliyin və mehriban qonşuluğun təbliğ olunmasında vacib rol oynayıb. Rəsmi Bakı ABŞ-nin Azərbaycanın siyası müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəyini yüksək qiymətləndirib.

→ 4

# İstirahət məkanlarına çevrilən Bakı parkları

Dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması, yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

→ 12



Yayın qızmar günlərində bu yerlərin əvəzi yoxdur

# Fransa təcavüzə, irqçiliyə xidmət edir

## Dini ayrı-seçkilik Parisin yürütdüyü siyasətin ayrılmaz hissəsidir

Olimpiya Oyunlarının prinsiplərinin əksinə olaraq açılış mərasimində təcavüzkar Ermənistana göstərilən dəstək, xüsusi qayğı və Azərbaycanın suveren hüquqlarına təhdid olan hərəkətlər, ifadələr Fransanın demokratik xalqların suverenliyinə, beynəlxalq hüquq normalarına, idman oyunlarının əsasnamələrinə hörmət qoymadığını aydın göstərir: "Fransa təcavüzə, irqçiliyə, faşizmə xidmət edən ölkədir. Açılış mərasimində xristian dininə qarşı da hərəkətlər Fransanın iç üzünü dünyaya bir daha göstərdi. Xristianlığın bu şəkildə təbliğ edilməsi bu dinə sitayiş edənlərə, əslində, insanlığa hörmətsizlikdir. Dünyanın bir çox ölkələrinin, din xadimlərinin bu məsələyə reaksiyası, Fransaya etirazlarını bildirməsi də bu baxımdan təsadüfi deyil".

Fransa başda olmaqla bəzi ölkələrin bundan siyasi məqsədlər, xalqları və ölkələri qarşı-qarşıya qoymaq, münaqişələr yaratmaq, müharibələri alovlandırmaq üçün istifadə etmələri ciddi fəlakətlərə, qarşıdurmalara gətirib çıxara bilər. Emmanuel Makron kimi cılız, səriştəsiz dövlət rəhbərləri, bu ölkənin siyasi dairələri bunu hələ də dərindən anlamırlar. Fransada dini ayrı-seçkilik gündən-günə genişlənir və bu ölkəni uçuruma aparır. Azərbaycanda isə bütün dinlər bərabərdir. Din xadimlərinin vəzifəsi isə xalqları daim birgə görmək, Azərbaycanı ucaltmaq, insanların xoşbəxtliyinə çalışmaqdır.

→ 8